IJLA
International Journal of Language and Awareness
E-ISSN: 2979-983X
Volume / Cilt: 3, Issue / Sayı: 1, 2024
URL: https://journals.gen.tr/homeros
DOI: 10.33390/ijla.2279

Received / Geliş: 05.09.2023
Acccepted / Kabul: 02.01.2024

RESEARCH ARTICLE /ARAŞTIRMA MAKALESİ

# Multikulturalizm və onun Azərbaycan ədəbi prosesinə təsiri

## Multiculturalism and its influence on the Azerbaijani literary process

**Naida Jamal Mamedkhanova**

Baku Slavic University / Azerbaijan, e-mail: nanasaf@gmail.com

**Annotasiya**

Məqalədə multikulturalizmin Azərbaycan ədəbi prosesinə təsiri məsələsi araşdırılır.Qeyd olunurki, multikulturalizm və milli identikliyin qorunması müasir dövrdə vacib və aktualdır. Bu sahədə müasir Azərbaycanın əldə etdiyi bütün səviyyələrdə tarazlığın qoruyub-saxlanılması bacarığı unikal təcrübədir və hərtərəfli öyrənilməyə layiqdir. Bu tədqiqat Azərbaycan fenomenini, onun unikal təcrübəsini – qloballaşma dövründə milli identikliyin qorunub saxlanmasını dərk etməyə öz töhfəsini verir. Məqalədə bir sıra Azərbaycan ədiblərinin yaradıcılığı nəzərdən keçirilir. Bu yazıçılar əsərlərində multikulturalizmi özünəməxsus şərh edirlər. Bu gün multikultural problemlə bağlı ədəbiyyat vahid hərəkat, istiqamət, hətta müəlliflər qruplarından ibarət deyil. Müəlliflərdə formalaşmış estetika yoxdur, lakin bəzi estetik sabitlərin, multikulturalizm məcrasında nəzərdən keçirilə biləcək bədii üsullar sisteminin yaranmasından danışmaq olar.

Multikulturalizm cəmiyyətin müxtəlif sahələrini əhatə edən bəşər tarixinin üzvi hissəsidir. Mədəniyyətlərin bərabərlik əsasında paralel mövcudluğu cəmiyyətdəki etnomilli və konfessional münasibətləri də əhatə edir. Multikulturalizmin təsiri yalnız XXI əsrdə deyil, cəmiyyətlərin inkişafında nisbi sabitlik və sosial böhranlar dövründə bərabər hiss olunur.

**Açar sözlər**: multikulturalizm, Şərq və Qərb, Azərbaycan ədəbiyyatı, qəhrəman problemi, bədii əsər.

**Citation/Atıf**: MAMEDKHANOVA, NJ. (2024). Multikulturalizm və onun Azərbaycan ədəbi prosesinə təsiri. *International Journal of Language and Awareness*. 3(1), 9-13. DOI: 10.33390/ijla.2279

**Corresponding Author/ Sorumlu Yazar:**
Naida Jamal Mamedkhanova
E-mail: nanasaf@gmail.com

Bu çalışma, Creative Commons Atıf 4.0 Uluslararası Lisansı ile lisanslanmıştır.
This work is licensed under a Creative Commons Attribution 4.0 International License.

**Annotation**

The article examines the influence of multiculturalism on the literary process of Azerbaijan. It is noted that multiculturalism and the protection of national identity are important and relevant in modern times. The ability of modern Azerbaijan to maintain balance at all levels in this area is a unique experience and deserves to be thoroughly studied. This research contributes to understanding the phenomenon of Azerbaijan, its unique experience – the preservation of national identity in the era of globalization. The article considers the creativity of a number of Azerbaijani writers. In their works, these writers interpret multiculturalism in their own way. Literature on the multicultural problem today does not consist of a single movement, direction, or even groups of authors. The authors do not have a formed aesthetics, but we can talk about the emergence of some aesthetic constants, a system of artistic techniques that can be considered in the direction of multiculturalism.

Multiculturalism is an organic part of the history of mankind, covering various spheres of society. The parallel existence of cultures on the basis of equality presupposes both ethno-national and confessional relations in society. The influence of multiculturalism is equally felt not only in the XXI century, but also during the period of relative stability and social crises in the development of societies.

**Keywords**: multiculturalism, East and West, Azerbaijani literature, hero problem, artistic work.

## GİRİŞ

Multikulturalizm sosial varlığın müxtəlif sahələrini (siyasət, iqtisadiyyat, ideologiya və mədəniyyət) əhatə edən bəşər tarixinin üzvi hissəsidir. Mədəniyyətlərin bərabərlik əsasında paralel mövcudluğu cəmiyyətdəki etnomilli və konfessional münasibətləri də əhatə edir. Psixoloji, fəlsəfi və dini problemlərin vahid bir düyünə birləşməsi elmi nəzəri və praktik tədqiqatların aktual obyektidir. Multikulturalizm xüsusilə XXI əsrin birinci rübündə, qloballaşma dövründə daha da genişlənir,lakin onun təsiri cəmiyyətlərin inkişafında nisbi sabitlik və sosial böhranlar dövründə bərabər hiss olunur.

Multikulturalizm və onun Azərbaycan ədəbi prosesinə təsiri XX-XXI əsr Azərbaycan ədəbiyyatında üzvi şəkildə öz əksini tapmışdır. Məqaləmizin tənqidi icmalına Qurban Səidin "Əli və Nino", İsmayıl Şıxlının "Dəli Kür", Lev Əsgərovun "Xüsusi əlaməti yoxdur", Çingiz Abdullayevin seçilmiş romanları, Aytən Aqşinin "Sınmış şüşələr üzərində vals», Z.Səfərbəyovun "Mənim lənətə gəlmiş dünyam", Anarın "Gecə düşüncələri" və bir sıra digər əsərlər daxildir. Səciyyəvi haldır ki, bu əsərlər yazıçılar tərəfindən müxtəlif janrlarda (novelist, avtobioqrafik, tarixi-fantastik və siyasi-detektiv xaraxterli hekayələr, povestlər və romanlar) yaradılmışdır. Bu, bir tərəfdən, adı çəkilən yazıçıların istedadının parlaq cəhətlərindən, digər tərəfdən isə, bu multikulturalizmin şərh olunmasında geniş imkanlarından xəbər verir. Çünki qeyd etmək lazımdır ki, bu gün multikultural problemlə bağlı ədəbiyyat vahid hərəkat, istiqamət, hətta müəlliflər qruplarından ibarət deyil. Müəlliflərdə formalaşmış estetika yoxdur, lakin bəzi estetik sabitlərin, multikulturalizm məcrasında nəzərdən keçirilə biləcək bədii üsullar sisteminin yaranmasından danışmaq olar.

Əsas hissə.Можно привести немало примеров литературного мультикультурализма.

Dahi Nizami Erkən Orta əsrlərdə yeni meyllərin hətta mücərrəd şəkildə olsa belə təsəvvür etməyərək özünün ölməz "Yeddigözəl" əsərini yaza bilirdimi [1]. Çünki, təsvir olunmuş hər gözəlin zahiri görünüşü müəyyən mədəniyyəti özündə cəmləşdirir. R.M.Novruzov isə Hötenin "Şərq divanı"nda mədəniyyətlərin sintezi mövzusuna həsr olunmuş bir sıra tədqiqi məqalələri yazmışdır [2; 3]. Ərəb fəlsəfəsindən danışarkən, orta əsrlərin bir növ kultu sayılan Qərb romantizminin inkişafı da qeyd olunmalıdır.

Burada ilk növbədə ədəbiyyat, poeziya və memarlıq üzrə şah əsərlərini dünyaya bəxş edən ispan-ərəb mədəniyyətinə cığırlar açılır. Orta əsrlərin son dövründə Avropa alimləri islam və xristian dinlərinin dialoqunu müşahidə etmək imkanı əldə etmişlər. Bəzən bu dialoq istər Şərqdə,

istər də Qərbdə heç də müsbət səciyyələnməyən dini məna qazanırdı. Daha doğru desək, əksinə bu dialoqlar sülhü bərqərar etmirdi. Bununla belə, fəlsəfi fikrin inkişafının bu mərhələsində biz multikulturalizmin yenidən çiçəklənməsini müşahidə edirik. Onun ilk rüşeyimləri tarixin ən qədim zamanlarına təsadüf etsə belə, nəticə etibarilə, multikulturalizm bir fenomen kimi XX-XXI əsrlərin qovşağında özünü göstərməyə başlayır.

Multikulturalizmin ümumi prinsipləri çərçivəsindən kənara çıxmayaraq fərqli, daha müasir xarakterli faktları qeyd etmək olar. Belə ki, Azərbaycanda bir çox əsrlər əvvəl yazılmış saysız-hesabsız əsərlər əsasında yaradılmış monoqrafiyaların təqdimatı mümkündür. Bu gün bu əsərlər qərb insanının düşüncəsi ilə müqayisədə müzakirə və təhlil olunur.

Multikulturalizm bu gün özünəməxsus məna kəsb edir. Bu məna nədən ibarətdir? Əvvəlcə qeyd etmək istərdik ki, multikulturalizm ictimai-siyasi və mədəni konsepsiya sistemidir. XXI əsrdə ona münasibətdə bir sıra ziddiyyətli mühakimələr yaranmışdır. Lakin elmi cəhətdən multikulturalizm şəxsiyyətin və dinin çoxsaylı etnopsixoloji tələbləri ilə bağlıdır. Məlumdur ki, müxtəlif millətlərə və dinlərə qarşı tolerantlıq Azərbaycan xalqının mental xarakteroloji xüsusiyyətidir. Çünki, respublikamız XXI əsrin birinci yarısında da polietnik dövlət olaraq qalır.Lakin bədii ədəbiyyatda multikulturalizmi hər hansı yaradıcı yüksəlişdə dəyişməz qalan standartlaşdırılmış sistemə, hazır standart sxemə uyğunlaşdırmaq düzgün olmazdır. Eyni zamanda, Azərbaycan bədii ədəbiyyatı,bədii dildə desək Rusiyada və Qərbdə eyni vaxtda yaranmış, ilkin şərqi dəyərləri və ənənələri ilə ziddiyyət təşkil etməyən sintez ideyaların qəbul olunmasına və işlənməsinə açıqdır.

Belə olan halda sual yaranır: Azərbaycan ədəbiyyatında multikulturalizm mövcuddurmu? Əgər vardırsa o nədə öz təzahürünü tapır?

Suala cavab verərkən ilk növbədə aydın şəkildə başa düşməliyik ki, birincisi, bədii yaradıcılıq və ya dokumentallıq bir sıra fərqli, spesifik xüsusiyyətlərə və xarakteroloji assosiyasiyalara malikdir. İkincisi, bu spesifikliyi məharətlə ifadə edə bilən bu və ya digər Azərbaycan yazıçısı öz baxış bucağını axtarıb-tapmağa çalışır.Bu, personajların Qərb təfəkkürü, yeni ictimai ideologiyanın birbaşa və ya dolayı yolla əks olunması, şəxsiyyətin psixologiyasının bəzi əlamətlərinin işıqlandırılması, ədəbiyyatımıza müəyyən zaman kəsimi üçünxas olmayan mövzuların seçimi də ola bilər.

“Ədəbi Azərbaycan” jurnalının baş redaktoru Solmaz İbrahimovanın (bir sıra məqalə və müsahibələrdə açıq şəkildə ifadə olunan) etirafına görə [4], Qurban Səid, İsmayıl Şıxlı, Çingiz Abdullayev, Anar, Ziya Səfərbəyov, Aytən Akşin, Gülüş Ağaməmmədova, Ləman Bağırova, Qazi Vahid, İsmayıl İmanov, Tahir Əli, Novruz Nəcəfoğlu, Marat Şəfiyevin və başqalarının əsərlərində multikulturalizmin xüsusiyyətlərinə rast gəlmək olar.

Ən parlaq və orijinal nümunələrə diqqət yetirək.

XX əsrin əvvəllərində Qurban Səidin “Əli və Nino” romanı multikulturalizmin pionerlərindən biri oldu [5]. Hekayənin süjet xəttinin əsasını tamamilə fərqli, bir-birinə zidd dünyaların təsviri təşkil edir. Bu isə diqqəti cəlb edir. Yazıçı ilk dəfə bir birini sevən gənc cütlüyün nümunəsində tanınmamış Şərqi təmsil edən Əli xan Şirvanşir və gürcü qızı Nino Kipiani arasında sərhəd xətti çəkə bilmişdir. Onların simasında Şərq baxışı bilavasitə Qərb dünyəviliyi ilə toqquşmuşdur.

İsmayıl Şıxlının “Dəli Kür” romanında kiçik bir kənd sivil şəhərə qarşı çıxır. Burada “Əli və Nino”ilə müqayisədə tamamilə fərqli ab-hava hökm sürür. Və qender əlaqələri sevgi kolliziyası çərçivəsindən xeyli kənara çıxır. Lakin ədəbi multikulturalizmin bütün təsiredici gücü bundan ibarətdir ki, əsərdə iki sivilizasiya sisteminin qəhrəmanlarının toqquşması olur. Onların iyerarxiyası fərqlidir, lakin bir mədəniyyətin digər mədəniyyət üzərində üstünlüyü eyni qarşıdurmanı qoruyub-saxlayır. Məhz, kənd etnomədəni mühitində qalmaq üçün qəlbən və ürəkdən yeni “şəhər mədəniyyəti sahili”nə yaxınlaşmaq lazımdır. Bu, heç də hər zaman mümkün deyil və təqdim olunan tədqiqatın müəllifi həyatın bir çox köhnə quruluşlarından xilas olmaq üçün lazım olan qəhrəmanların yolunu nəzərdən keçirir.

Çingiz Abdullayev tanınmış siyasi detektiv ustasıdır. Onun romanlarının əksəriyyətində Qərb mədəniyyətinin elə parametrləri verilmişdir ki, bu Rusiya dövlətçiliyinin hüquqi normalarına müəyyən oxşarlıq yaradır. Başqa sözlə, onun əsərlərində multikulturalizm ideyaları elmi-tətbiqi sahəyə daxil edilmişdir. Daha doğrusu, mətnə uyğun desək dünya axtarış iş üsulları ilə müasir informasiya texnologiyalarının vəhdətindən danışılır. Z.Səfərbəyovun "Mənim lənətə gəlmiş dünyam" romanında isə multikulturalizm nəzəriyyəsi sosial varlığın başqa sahəsinə, emosional-hissiyyat sferasına köçürülmüşdür. Qəhrəman məhrumiyyətlərə məruz qalır, bunun nəticəsində şəxsin yenidən qiymətləndirməsibaş verir. O, milli ləyaqət hissini unudaraq Qərbin estetik dəyərlərini mənimsəyir, eyni zamanda qəbul edir. Nəticədə, iki dünya arasında mübarizə onun üçün bütün bəşəriyyətə nifrətlə başa çatır, bu isə müasir Azərbaycan ədəbiyyatı üçün tamamilə qeyri-təbii bir mövzudur.

Anar son illər boyu postmodernizmin yeniliklərinə qarşı qətiyyətlə çıxış edən realist yazıçı kredosundan çıxış edir. Anar "Gecə düşüncələri" essesində Qərb-Şərq həyat tərzinin yeni bədii qavranmasını vermişdir. Yazışının etirafına görə, yaxın gələcəkdə Qərb ədəbiyyatı nümunəsinə uyğun ailə romanının yaradılması planının hazırlanması da vacibdir.

Bütün digər hallarda araşdırmada göstərilir ki, multikulturalizm Azərbaycan yazıçılarının yaradıcılığında insan varlığının müxtəlif tərəflərini ifadə edir [8]. Məsələn, Lev Əsgərov realizmlə ekzistensializmi yanaşı verərək, fantaziya janrında öz qəhrəmanını axtarır. Aytən Akşin, qəhrəmanların postmodern düşüncəsi səviyyəsində Qərb və Şərq dünyalarını birləşdirir. Lakin bu işdə vurğulandığı kimi, XX-XXI əsr Azərbaycan ədəbiyyatında multikulturalizm xüsusi tarixi-fəlsəfi və sosial-siyasi kateqoriya kimi təqdim olunur [9]. Bu isə, nəticə etibarı iləistedadlı Azərbaycan ədiblərinin əsərlərində əhəmiyyətli ideyaların və ya şəxsiyyətin fərdi dünyagörüşünün ifadəsinə çevrilir.

Multikulturalizm və milli identikliyin qorunması müasir dövrdə vacib və aktualdır [6]. Bu sahədə müasir Azərbaycanın əldə etdiyi bütün səviyyələrdə tarazlığın qoruyub-saxlanılması bacarığı unikal təcrübədir və hərtərəfli öyrənilməyə layiqdir. Burada məşhur fransız şərqşünası Anketil Düperronun sözlərini qeyd etmək yerinə düşər: "Biz antik mədəniyyət, ədəbiyyat və maarifin vətənini əbəs yerə yunanlar və romalılarda axtarırıq. Onlar qədim Midiyada, Atropatenada axtarılmalıdır" [7]. Bəlkə də bu fikri tamamlamaq olar. Gələcək qlobal sivilizasiyanın açarlarını Azərbaycanda axtarmaq lazımdır ki, bu da torpağımızın rəngarəng mədəni palitrasını qoruyub saxlaya bilsin.

## NƏTICƏ

Bu tədqiqat Azərbaycan fenomenini, onun unikal təcrübəsini – qloballaşma dövründə milli identikliyin qorunub saxlanmasını dərk etməyə öz töhfəsini verir. Azərbaycanda gedən bu proseslərin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

**Ədəbiyyat siyahısı**

QOCAYEV M.Q. Nizaminin insan fəlsəfəsi. Bakı: Mütərcim, 2011, 172 s.

NOVRUZOV R.M. Hötenin "Şərq divanı"nda sufi motivləri //Литературный Азербайджан, 2008, № 1, s. 12-17.

NOVRUZOV R.M. Bədii tərcümə və ədəbiyyatların qarşılıqlı əlaqəsi, zənginləşməsi problemləri. Bakı, Elm, 1999, 121 s.

ИБРАГИМОВА С. Интервью о вручении литературных премий современным азербайджанским писателям: www. azyb. az / admin/media/

МИР-БАГИРЗАДЕ С.А. Восток и Запад в романе «Али и Нино» // Элм, № 14, 31 июля, 2015.

МАМЕДЗАДЕ ИЛЬГАМ. Мультикультурализм как вызов эпохи глобализации. [http://www.mgimo.ru/fileserver/books/rami4konvent/].

МАМОНОВА В.А. «Мультикультурализм: разнообразие и множество»,CREDO NEW теоретический журнал. http://credonew.ru/content/view/606/32/(16.05.2009).

РЗАЕВА Р.О. Меняющиеся ценности и мультикультурализм. Доклад на Бакинском Международном гуманитарном форуме. Сентябрь, 2011,6с.http://www.bakuforum.org/ru/main_page_forum2011/stenoqrama/multiculture/

СЕИДОВА Г. Идеи мультикультурализма в реалиях сегодняшнего дня: плюсы и минусы // html. www. Phillaw - az. org.